www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

Xalq yazıçısı Anar Avrasiya Yazarlar Birliyinin "Onur" medalı ilə təltif edilib

Türkiyənin paytaxtı Ankara şəhərində Qazi Universitetinin Türkcə Öyrətim Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycan ədəbiyyatının zirvəsi: Anar" adlı panel keçirilib. Memar Kemaleddin salonunda baş tutan tədbirdə universitetin rektoru, Prof. Dr. Uğur Ünal, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Türk Dil Qurumu başçısı Prof. Dr. Osman Mert, rektor müavini Prof. Dr. Necdet Hayta, Türkcə Öyrətim Mərkəzinin müdiri Prof. Dr. Nezir Temur, Azərbaycanın Türkiyədəki Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, mərkəz əməkdaşları, dekanlar, universitetin pedaqoji heyəti, qonaqlar və tələbələr iştirak ediblər.

Tədbir Azərbaycan və Türkiyə himnlərinin səsləndirilməsi ilə başlayıb.

Universitetin rektoru, Prof. Dr. Uğur Ünal açılış nitqində türk dünyasının böyük yazıçılarından birini Qazi Universitetində qəbul etməyin böyük qürur olduğunu qeyd edib: "Onun əsərləri yalnız Azərbaycan coğrafiyasında deyil, türk dilinin danışıldığı bütün bölgələrdə böyük maraqla oxunur. Bu paneldə Anarın ədəbi yönü və türk mədəniyyətinə verdiyi töhfələr geniş şəkildə müzakirə olunacaq. "Türkiyə mənim ikinci vətənimdir" deyən Anara uzun və bərəkətli bir yaradıcılıq həyatı arzulayıram. Azərbaycandan gələn qonaqlarımıza səmimi "xoş gəlmisiniz" deyirəm".

Türkcə Öyrətim Mərkəzinin müdiri, Prof. Dr. Nezir Temur çıxışında yazıçı və şairlərin bir dilin ifadə gücünü qoruyan insanlar olduğunu vurğulayıb.

Tədbirin panel bölməsində "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Pərvin Nurəliyeva, "Türk ədəbiyyatı" dərgisinin baş redaktoru İmdat Avşar və Qazi Təhsil fakültəsinin professoru Mustafa Kurt çıxış ediblər. Çıxış edənlər Anarın yaradıcılığının müxtəlif mərhələlərinə toxunublar, onun əsərlərindəki milli kimlik, adət-ənənə, insan taleyi və mənəvi dəyərlər mövzularını təhlil ediblər.

Panelin sonunda Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar "Yazıçılıq sərgüzəştim" mövzusunda çıxış edib. Yazıçı çıxışında ədəbiyyata gəlişindən, keçdiyi zəngin yaradıcılıq yolu barədə fikirlərini bölüşüb: "Mənim əziz dostum, Türk dünyasının böyük yazıçısı Çingiz Aytmatov Qırğızıstanı dünyaya tanıtmaq istəyirdi, mən isə Azərbaycanı Azərbaycana tanıtmağa çalışıram".

O, çıxışının sonunda Qazi Universitetinin rəhbərliyinə və tədbirin təşkilatçılarına səmimi təşəkkürünü bildirib: "Bu görüş mənim üçün çox dəyərlidir. Türkiyədə, xüsusilə Qazi Universiteti kimi köklü elm ocağında Azərbaycan ədəbiyyatı haqqında söz demək böyük xoşbəxtlikdir. Bütün təşkilatçılara və iştirakçılara minnətdarlığımı bildirirəm".

Proqram sual-cavab hissəsi ilə yekunlaşıb. Tələbələrin yazıçının yaradıcılığına dair ünvanladığı suallar tədbirə interaktiv ruh gətirib. Panel iştirakçıları bu görüşü Azərbaycan və Türkiyə arasında ədəbi-mədəni körpünün daha da möhkəmlənməsi kimi dəyərləndiriblər.

Tədbirdən sonra Xalq yazıçısı Anar Avrasiya Yazarlar Birliyinin "Onur" medalı ilə təltif edilib. Medal Xalq yazıçısına təşkilatın başqanı Ufuq Tuzman tərəfindən təqdim olunub.

Çıxış edən Ufuq Tuzman Anarın ədəbiyyat sahəsindəki çoxillik fəaliyyətindən, Azərbaycan ədəbiyyatı ilə yanaşı, bütün Türk dünyasına verdiyi töhfələrdən bəhs edib. O bildirib ki, bütün bu xidmətlərə görə təşkilat adından bu mükafat Anara təqdim olunur.

Mükafata görə təşəkkürünü bildirən Xalq yazıçısı Anar Avrasiya Yazarlar Birliyinə və onun rəhbərliyinə minnətdarlığını ifadə edib. O, həmçinin birliyin sabiq başqanı, mərhum Yaqub Ömərоğlunun adını ehtiramla xatırlayaraq, onun vəfatından dərin kədərləndiyini deyib: "Yaqub Ömərоğlu Türk dünyasının ədəbi körpülərini qurmaqda böyük xidmətlər göstərib. Onu hər zaman sevgi və hörmətlə yad edəcəyik".

Şəhla ASLAN,
Ankara